Education and Culture DG

European Qualifications Framework



Education and Training

# ÖMÜR BOYU TƏHSİL ÜZRƏ AVROPA KVALİFİKASİYALAR ÇƏRÇİVƏSİ (EQF)

Avropa Kvalifikasiyalar Çərçivəsi (EQF) ayrı-ayrı ölkələrin kvalifikasiya sistemlərini bir-biri ilə əlaqələndirən, Avropanın müxtəlif ölkə və sistemləri çərçivəsində kvalifikasiyaların daha aydın və anlaşıqlı olması məqsədi ilə onların müqayisəsi üçün vasitə rolunu oynayan, Avropada istinad məqsədi ilə istifadə olunan vahid çərçivə sənədidir. Onun iki başlıca məqsədi var: a) ölkələr arasında vətəndaşların mobiliyinin təşviq edilməsi b) onların ömürboyu təhsil almasının asanlaşdırılması.

Tövsiyə 2008-ci ilin aprel ayında qüvvəyə minib. Sənəd ölkələrin milli kvalifikasiya sistemlərini EQF ilə əlaqələndirmək üçün 2010-cu ili və fərdi kvalifikasiya sertifikatlarının müvafiq EQF səviyyəsinə uyğun istinad edilməsini təmin etmək üçün 2012-ci ili tövsiyə edilən hədəf tarix kimi təyin edir.

EQF səkkiz istinad səviyyəsindən ibarət vahid istinad sənədi olmaqla Avropa ölkələrin milli kvalifikasiyalar sistemlərini və çərçivələrini əlaqələndirəcək. Səviyyələr ibtidai səviyyədən (Məsələn, Səviyyə 1 – attestat) qabaqcıl səviyyədək (Məsələn, Səviyyə 8 - doktorantura) olan bütün kvalifikasiyaları əhatə edir. Ömür boyu təhsilin təşviqinə xidmət edən sənəd kimi EQF ümumi, peşə, eləcə də akademik təhsil və təlim nəticəsində əldə olunan kvalifikasiyaların bütün səviyyələrini əhatə edir. Bundan əlavə, çərçivə ilkin və davamlı təhsil nəticəsində əldə olunan kvalifikasiyaları da əhatə edir.

Səkkiz istinad səviyyəsi təlim nəticələri baxımından təsvir edilir. EQF Avropa təhsil və təlim sistemləri arasındakı fərqlərin böyük olduğunu və bu səbəbdən, institutlar arasında müqayisə və əməkdaşlığı mümkün etmək üçün təlim nəticələrinə keçidin zəruriliyini tanıyır.

EQF təlim nəticələri təhsilalanın nələri bildiyi, qavradığı və təlim prosesini bitirdikdən sonra nəyi edə biləcəyi üzrə göstəricilər kimi tərif edir. Bu səbəbdən, EQF təlim müddətini deyil, təlim yekunlarını vurğulayır. Təlim nəticələri bilik, bacarıq və kompetensiya olmaqla üç kateqoriyada təsnifləşdirilib. Bu, kvalifikasiyaların, müxtəlif kombinasiyalarda, təlim nəticələrini, o cümlədən nəzəri bilik, praktiki və texniki bacarıq və digər şəxslərlə işləmək bacarığının önəmli olduğu hallarda tələb olunan sosial kompetensiyaları geniş surətdə əhatə etdiyini nümayiş etdirir.

**EQF-in yaranma tarixi – EQF necə yarandı?**

Avropa Kvalifikasiyalar Çərçivəsinin hazırlanmasına Üzv Dövlətlərin, sosial tərəfdaşların və digər maraqlı tərəflərin kvalifikasiyaların şəffaflığının artırılması üçün ümumi istinad çərçivəsinin yaradılması müraciətlərinə cavab olaraq 2004-cü ildə başlanıldı.

EQF Ekspert qrupunun dəstəyi ilə Komissiya kvalifikasiyaların şəffaflığı və daşınaqlılığını[1] asanlaşdırmağı və ömür boyu təhsilə yardım göstərməyi hədəfləyən təlim nəticələri əsasında səkkiz səviyyəli çərçivə layihəsi hazırladı. Komissiya 2005-ci ilin ikinci yarısında Avropa səviyyəsində müzakirə edilməsi üçün sənədi dərc etdi.

Müzakirələrin nəticələri Avropada maraqlı tərəflərin Komissiyanın təklifinə böyük dəstək verdiyini nümayiş etdirdi. Bununla belə, bir sıra aydılaşdırma və sadələşdirmə təklifləri də oldu. Buna cavab olaraq, Komissiya 32 iştirakçı ölkədən olan ekspertlərin, eləcə də Avropanın sosial tərəfdaşlarının töhfəsindən faydalanaraq təklifə düzəlişlər etdi. Təshih edilmiş mətn daha sonra Komissiya tərəfindən 2006-cı il sentyabrın 6-da təklif şəklində qəbul edildi. Təklifin Avropa Parlamenti və Şura tərəfindən 2007-ci ildə müvəffəqiyyətlə razılaşdırılması 2008-ci ilin fevralında EQF-in rəsmi qəbulu ilə nəticələndi.

[1] Kvalifikasiya və kreditlərin digər ölkələrdə tanınması

**EQF-in Avropa üçün faydası nədir?**

Tövsiyə müxtəlif milli kvalifikasiyalar sistəmlərini əlaqələndirəcək və bununla, onlar arasındakı əlaqələri asanlaşdıracaq vahid Avropa sənədi ərsəyə gətirəcək. Beləliklə, müstəqil, lakin əlaqəli və qarşılıqlı surətdə anlaşıqlı kvalifikasiyalar sistemləri şəbəkəsi yaranacaq.

Təlim nəticələrini vahid istinad kimi istifadə edərək Çərçivə sənədi ölkələr, sistemlər və institutlar arasında kvalifikasiyaların müqayisəsi və transferini asanlaşdıracaq və nəticədə, Avropa, elecə də milli səviyyədə bir çox istifadəçilər üçün faydalı olacaq.

Əksər Avropa ölkələri EQF-ə uyğun olaraq onunla səslənən Milli Kvalifikasiyalar Çərçivəsi hazırlamaq qərarını verib. Bu proseslər Avropa səviyyəsində əməkdaşlığın milli səviyyəyə əsaslandığını təmin etmək üçün vacibdir. 2004-cü ildən MKÇ-lərinin sürətli şəkildə hazırlanması bütün səviyyələrdə kvalifikasiyaların şəffaflığı və müqayisəsinə olan ehtiyacı və EQF-in əsasını təşkil edən başlıca prinsiplərin geniş surətdə dəstəkləndiyini nümayiş etdirir.

Ölkələrin kvalifikasiyalar sistemləri arasındakı yaxın əlaqələrin bir çox benefisiarları olacaq:

- EQF təhsilalanların və şəxsi heyətin daha fəal mobilliyinə yardım olacaq. Bu, təhsilalanlara kompetensiyalarını digər ölkələrin işəgötürənlərinə təsvir etməyi asanlaşadıracaq. Bu eləcə də işəgötürənlərə namizədin kvalifikasiyalarını anlamağa və beləliklə, Avropada əmək mobilliyini dəstəkləməyə yardım edəcək. Praktiki olaraq 2012-ci ildən bütün yeni kvalifikasiyalar müvafiq EQF səviyyəsinə istinad təmin etməlidir. Beləliklə, EQF Europass, Erasmus və Avropa Kredit Transferi və Toplanması Sistemi (AKTTS) kimi mövcud Avropa mobillik alətlərini tamamlayacaq və gücləndirəcək.

- EQF ömür boyu təhsilin əlçatarlılığını və bu prosesdə iştirakı artırmaqla şəxsləri faydalandırmalıdır. Vahid istinad yaratmaqla EQF təlim nəticələrini müxtəlif şəraitlərdən, məsələn, rəsmi təhsil və ya iş və digər ölkələrdən, bir araya necə gətirilə biləcəyini nümayiş etdirir və beləliklə, təhsil və təlimverənlər arasındakı, məsələn, bir-birindən təcrid edilmiş şəkildə fəaliyyət göstərən ali təhsil və peşə təhsili və təlimi arasındakı, maneələrin azaldılmasına töhfə verir. Bu, təhsilalanların təlimi təkrarlamamasını təşviq edəcək.

- EQF qeyri-formal və informal kvalifikasiyaların təsdiqlənməsini asanlaşdırmaqla iş və ya digər sahələrdə geniş təcrübəsi olanlara dəstək olacaq. Təlim nəticələrinin vurğulanması həmin şəraitdə qazanılan təlim nəticələrinin məzmun və uyğunluq baxımından rəsmi kvalifikasiyalarla ekvivalentliyini ayırd etməyi asanlaşdıracaq.

- EQF milli sistemlərdən kənarda, məsələn, sektorlar və beynəlxalq şirkətlər tərəfindən verilən kvalifikasiyaların şəffaflığını artırmaqla fərdi istifadəçiləri, eləcə də təhsil və təlimverənləri dəstəkləyəcək. Təlim nəticələrinə əsaslanan vahid çərçivə sənədinin qəbulu milli hökümətlərin verdiyi ənənəvi kvalifikasiyalar və digər maraqlı tərəflərin verdiyi kvalifikasiyaların müqayisəsi və (mümkün) əlaqələndirilməsini asanlaşdıracaq. Beləliklə, EQF sektor və şəxslərə kvalifikasiyaların artan beynəlmiləlləşməsindən faydalanmağa yardım edəcək. EQF təhsil və təlim sistemlərinə, əmək bazarına, sənaye, kommersiya və vətəndaşlara təsir edəcək iddialı və müfəssəl sənəddir.

Daha ətraflı məlumat üçün: http://ec.europa.eu/dgs/education_culture/ index_en.html

**Ömür boyu təhsil üzrə Avropa Kvalifikasiyalar Çərçivəsinin yaradılmasına dair**

**AVROPA PARLAMENTİ VƏ ŞURANIN**

**2008-ci il 23 aprel tarixli TÖVSİYƏSİ**

Avropa İttifaqının yaradılması üzrə Sazişi, xüsusən Maddə 149(4) və Maddə 150(4)-ü nəzərə alaraq,

Komissiyanın təklifini nəzərə alaraq,

İqtisadi və Sosial Məsələlər üzrə Avropa Komitəsinin rəyini nəzərə alaraq,

Regionlar üzrə Komitənin rəyini nəzərə alaraq,

Sazişin 251-ci Maddəsində qeyd edilən prosedura uyğun hərəkət edərək,

**Eləcə də aşağıda qeyd olunanları nəzərə alaraq,**

(1) Vətəndaşların bilik, bacarıq və kompetensiyaların inkişaf etdirilməsi və tanınması İttifaqda şəxslərin, rəqabətliliyin, məşğulluğun və sosial həmrəyliyin inkişafı üçün önəmlidir. Belə inkişaf və tanınma işçilərin və təhsilalanların ölkələrarası mobilliyini asanlaşdırmalı və Avropa əmək bazarında tələb və tələbatın ehtiyaclarını qarşılamağa töhfə verməlidir. Bu səbəbdən, ömür boyu təhsilin sosial cəhətdən az təminatlı insanlar daxil olmaqla hamı üçün əlçatarlılığı və bu prosesdə iştirak və kvalifikasiyaların istifadəsi milli və İttifaq səviyyəsində təşviq edilməlidir.

(2) Avropa Şurasının 2000-ci ildə keçirilən Lissabon görüşündə kvalifikasiyaların şəffaflığının artırılmasının İttifaqın təhsil və təlim sistemlərinin bilikli cəmiyyətin ehtiyaclarına uyğunlaşdırılması üçün zəruri olsn başlıca komponentlərin biri olduğu qənaətinə gəlinib. Buna əlavə olaraq, Avropa Şurasının 2002-ci ildə keçirilən Barselona görüşü universitet sektorunda daha sıx əməkdaşlıq və peşə təhsili və təlimi sahəsində şəffaflıq və tanınma metodlarının təkmilləşdirilməsinə səsləmişdir.

(3) Şuranın ömür boyu təhsil üzrə 2002-ci il 27 iyun tarixli Qətnaməsi Avropa Komissiyasını Şura və Üzv Dövlətlərlə birlikdə Bolonya prosesinin nailiyyətlərinə əsaslanaraq və peşə təlimi sahəsində oxşar fəaliyyəti təşviq edərək təhsil və təlim kvalifikasiyalarının tanınması üçün çərçivə hazırlamağa dəvət etmişdir.

(4) 2004 və 2006-ci ildə qəbul edilmiş "Təhsil və Təlim 2010" işçi proqramının icrasına dair Şura və Komissiyanın müştərək hesabatları Avropa Kvalifikasiyalar Çərçivəsinin hazırlanmasının zəruriliyini vurğuladı.

(5) Kopenhagen prosesi kontekstində 2004-cü il noyabrın 15-də keçirilən peşə təhsili və təlimi sahəsində Avropada əməkdaşlığın artırılması üzrə gələcək prioritetlərə dair görüşdə Şura və Üzv Dövlətlərin hökümət nümayəndələri şəffaflıq və qarşılıqlı etimada əsaslanan və həm təhsil, həm də təlim sahəsini əhatə edən vahid istinad sənədi rolunu oynayacaq açıq və uyğunlaşdırıla bilən Avropa Kvalifikasiyalar Çərçivəsinin yaradılması qənaətinə gəldilər.

(6) Qeyri-formal və informal təlim nəticələrinin təsdiqlənməsi qeyri-formal və informal təlimin müəyyənləşdirilməsi və təsdiqlənməsi üzrə vahid Avropa prinsiplərinə dair 2004-cü il mayın 28-də qəbul edilmiş Şura təlimatlarına uyğun olaraq təşviq edilməlidir.

(7) Avropa Şurasının 2005 və 2006-cı ilin martında keçirilən Brussel görüşü Avropa Kvalifikasiyalar Çərçivəsinin qəbulunun vacibliyini vurğuladı.

(8) Bu Tövsiyə Avropa Parlamenti və Şuranın kvalifikasiyalar və kompetensiyaların şəffaflığı üzrə vahid İttifaq çərçivəsinə (Europass) dair 2004-cü il 15 dekabr tarixli, 2241/2004/EC nömrəli qərarını və Avropa Parlamenti və Şuranın ömür boyu təhsil üzrə əsas kompetensiyalara dair 2006-cı il 18 dekabr tarixli, 2006/962/EC nömrəli Tövsiyəsini nəzərə alır.

(9) Bu Tövsiyə Bolonya prosesi çərçivəsində 45 Avropa ölkəsinin ali təhsil üzrə məsul nazirinin 2005-ci il mayın 19 və 20-də Bergendə keçirilən görüşündə razılaşdırdıqları Avropa Ali Təhsil Məkanı üzrə çərçivə və səviyyə diskriptorlarına uyğundur.

(10) Şuranın peşə təhsili və təlimi sahəsində keyfiyyət təminatı üzrə 2004-cü il 23-24 may tarixli mülahizələri, Avropa Parlamenti və Şuranın ali təhsilin keyfiyyət təminatı sahəsində Avropada əməkdaşlığın genişləndirilməsi üzrə 2006-cı il 15 fevral tarixli, 2006/143/EC nömrəli Tövsiyəsi və ali təhsil üzrə məsul nazirlərin Bergendə keçirilən görüşündə razılaşdırdıqları Avropa Ali Təhsil Məkanında keyfiyyətin təminatı üzrə standartlar və təlimatlar keyfiyyətin təminatı üzrə vahid prinsipləri əks etdirir və bu, Avropa Kvalifikasiyalar Çərçivəsinin icrasının əsasını təşkil etməlidir.

(11) Bu Tövsiyə Avropa Parlamenti və Şuranın müvafiq hökümətə, eləcə də miqranta hüquqlar verən və üzərinə öhdəliklər qoyan peşəkar kvalifikasiyaların tanınmasına dair 2005-ci il 7 sentyabr tarixli, 2005/36/EC nömrəli Direktivinə zidd deyil. Kvalifikasiyalar üzrə Avropa Kvalifikasiyalar Çərçivəsi səviyyələrinə istinad, peşəkar kvalifikasiyaların 2005/36/EC nömrəli Direktivə uyğun olaraq tanındığı halda, əmək bazarına əlçatarlılığa təsir etməməlidir.

(12) Bu Tövsiyənin məqsədi ümumi və ali təhsil və ya peşə təhsili və təlimi olmasından asılı olmayaraq ayrı-ayrı kvalifikasiya sistemləri və onların səviyyələri arasında əlaqə mexanizmi rolunu oynayacaq vahid istinad çərçivəsi yaratmaqdır. Bu, ayrı-ayrı Üzv Ölkələrin praktikalarına uyğun olaraq vətəndaşlara verilmiş kvalifikasiyaların şəffaflığını, müqayisəsini və daşınaqlılığını təkmilləşdirəcək. Ümumilikdə, hər kvalifikasiya səviyyəsini müxtəlif təhsil və karyera yolları vasitəsilə qazanmaq mümkün olmalıdır. Bundan əlavə, Avropa Kvalifikasiyalar Çərçivəsi beynəlxalq sahə təşkilatlarına kvalifikasiya sistemlərini vahid Avropa istinad sənədi ilə əlaqələndirməyə imkan yaratmalıdır və bununla, beynəlxalq sahə kvalifikasiyaları ilə milli kvalifikasiya sistəmləri arasında əlaqələri nümayiş etdirmək olar. Bu səbəbdən, Tövsiyə ömür boyu təhsilin təşviqi və işçi və təhsilalanların məşğulluğu, mobilliyi və sosial inteqrasiyasının artırılması kimi əlavə məqsədlərə töhfə verir. Şəffaf keyfiyyət təminatı prinsipləri və məlumat mübadiləsi qarşılıqlı etimad yaratmağa yardım etməklə onun icranı dəstəkləyəcək.

(13) Bu Tövsiyyə təhsil və təlim sistemlərini müasirləşdirməyə, təhsil, təlim və məşğulluq arasında əlaqələrə, formal, qeyri-formal və informal təhsil arasında əlaqə yaratmağa töhfə verəcək, eləcə də təcrübə ilə qazanılan təlim nəticələrinin təsdiqlənməsi ilə nəticələnəcək.

(14) Bu Tövsiyə milli kvalifikasiya sistemlərini və/və ya kvalifikasiyaları əvəz və ya müəyyən etmir. Avropa Kvalifikasiyalar Çərçivəsi spesifik kvalifikasiyaları və ya şəxsin kompetensiyalarını təsvir etmir və xüsusi kvalifikasiyalar müvafiq milli kvalifikasiya sistemləri vasitəsilə Avropa Kvalifikasiyalar Çərçivəsinin müvafiq səviyyəsi ilə əlaqələndirilir.

(15) Qeyri-icbari xarakter daşımasını nəzərə alaraq, Tövsiyə şəffaflığı artırmaq və mobillik və ömür boyu təhsili təşviq etmək üçün Üzv dövlətlər arasında əməkdaşlığın genişlənməsinə yardım etmək vasitəsilə onların fəaliyyətini dəstəkləmək və tamamlamaqla subsidiarlıq prinsipinə cavab verir. Bu, milli qanunvericilik və praktikaya uyğun yerinə yetirilməlidir.

(16) Bu Tövsiyənin məqsədinin, yəni,müxtəlif kvalifikasiya sistemləri və onların səviyyələrinin müqayisəsi üçün vasitə rolunu oynayan vahid çərçivə sənədinin yaradılmasının, Üzv Dövlətlər tərəfindən fərdi olaraq əldə edilməsi çətin olduğundan və fəaliyyətin əhatə və təsir dairəsini nəzərə alaraq İttifaq səviyyəsində daha yaxşı nəticələr əldə edilə biləcəyindən, İttifaq, Sazişin 5-ci Maddəsində qeyd olunan subsidiarlıq prinsipinə uyğun tədbirlər görə bilər. Həmin maddədə qeyd olunan proporsionallıq prinsipinə uyğun olaraq bu Tövsiyə məqsədə nail olmaq üçün yalnız zəruri olan tədbirləri görür.

**AVROPA PARLAMENTİ VƏ AVROPA İTTİFAQININ ŞURASI ÜZV DÖVLƏTLƏRƏ AŞAĞIDA QEYD OLUNANLARI TÖVSİYƏ EDİR:**

1. milli təhsil sistemlərinin zəngin müxtəlifliyinə hörmət etməklə yanaşı, ayrı-ayrı kvalifikasiya sistemlərinin kvalifikasiya səviyyələrini müqayisə etmək və biliyə əsaslanan cəmiyyətdə ömür boyu təhsil və bərabər imkanları təşviq etmək, eləcə də Avropa əmək bazarının inteqrasiyasını genişləndirilmək üçün Avropa Kvalifikasiyalar Çərçivəsindən istinad sənədi kimi istifadə edin;

2. xüsusilə, milli kvalifikasiya səviyyələrini Əlavə II qeyd edilən səviyyələrlə şəffaf şəkildə əlaqələndirmək və müvafiq olduğu təqdirdə, milli kvalifikasiyalar çərçivəsini milli qanunvericilik və praktikaya uyğun olaraq hazırlamaqla 2010-cu ilədək milli kvalifikasiya sistemlərini Avropa Kvalifikasiyalar Çərçivəsi ilə əlaqələndirin;

3. səlahiyyətli orqanların təltif etdiyi bütün yeni sertifikat, diplom və Europass sənədlərində milli kvalifikasiya sistemləri vasitəsilə Avropa Kvalifikasiyalar Çərçivəsinin müvafiq səviyyəsinə aydın istinadın 2012-ci ilədək təmin edilməsi üçün müvafiq tədbirlər görün;

4. kvalifikasiyaları müəyyənləşdirərkən və təsvir edərkən təlim nəticələrinə əsaslanan yanaşmadan istifadə edin və işsizlikdən əziyyət çəkən və ya qeyri-stabil iş yerlərində çalışan vətəndaşlara diqqət yönəltməklə qeyri-formal və informal təhsilin Şuranın 2004-cü il 28 may tarixli mülahizələrində razılaşdırılmış vahid Avropa prinsiplərinə uyğun olaraq təsdiqlənməsini təşviq edin; bu yanaşma belə vətəndaşların ömür boyu təhsildə iştirak imkanını və əmək bazarının əlçatarlılığını artırmağa yardım edə bilər;

5. milli kvalifikasiya sistemləri daxilində ali təhsil, peşə təhsili və təlim kvalifikasiyalarını Avropa Kvalifikasiyalar Çərçivəsi ilə əlaqələndirərkən təhsil və təlim sahəsində Əlavə 3-də qeyd edilən keyfiyyət təminatı prinsiplərini təşviq və tətbiq edin;

6. milli kvalifikasiya sistemləri və Avropa Kvalifikasiyalar Çərçivəsi arasındakı əlaqələrin keyfiyyət və şəffaflığını təşviq etmək məqsədilə həmin əlaqələri dəstəkləmək və digər milli orqanlarla birlikdə istiqamətləndirmək üçün Üzv Dövlətlərin xüsusi struktur və tələbləri ilə əlaqəli milli koordinasiya mərkəzləri təhkim edin.

Milli koordinasiya mərkəzlərinin vəzifələrinə daxildir:

(a) milli kvalifikasiya sistemləri daxilindəki kvalifikasiya səviyyələrini Əlavə 2-də təsvir edilən Avropa Kvalifikasiyalar Çərçivəsi ilə əlaqələndirmək;

(b) kvalifikasiyaların müqayisəsini asanlaşdırmaq məqsədilə milli kvalifikasiya səviyyələrini Avropa Kvalifikasiyalar Çərçivəsi ilə əlaqələndirərkən şəffaf metodologiyanın istifadəsini, eləcə də verilən qərarların dərc edilməsini təmin etmək;

(c) maraqlı tərəflərə milli kvalifikasiyaların milli kvalifikasiya sistemləri vasitəsilə Avropa Kvalifikasiyalar Çərçivəsi ilə necə bağlı olduğuna dair məlumat və qaydalara çıxış təmin etmək;

(d) milli qanunvericilik və praktikaya uyğun olaraq ali təhsil, peşə təhsili və təlim institutları, sosial tərəfdaşlar, sektorlar və Avropa səviyyəsində kvalifikasiyaların müqayisəsi və istifadəsi üzrə ekspertlər daxil olmaqla müvafiq maraqlı tərəflərin iştirakını təşviq etmək.

**KOMİSSİYANIN AŞAĞIDA QEYD OLUNANLARI YERİNƏ YETİRMƏK NİYYƏTİNİ TƏSDİQLƏYİR:**

1. əməkdaşlığın asanlaşdırılması, qabaqcıl praktikaların mübadiləsı və sınaqdan keçirilməsi, İttifaq proqramları çərçivəsində həmkarlar tərəfindən könüllü nəzərdən keçirmə və pilot layihələr, eləcə də sosial dialoq komitələri ilə məlumat və konsultasiya məşğələləri və dəstəkləyici və istiqamətləndirici materialların hazırlanması vasitəsilə yuxarıda qeyd edilən vəzifələrin həyata keçirilməsində Üzv Dövlətləri və bu Tövsiyədə qeyd olunan Avropa Kvalifikasiyalar Çərçivəsinin istinad səviyyələri və prinsiplərinin istifadəsində beynəlxalq sahə təşkilatlarını dəstəkləmək;

2. 2009-cu il 23 aprel tarixinədək, Üzv Dövlətlərin nümayəndələrindən ibarət və Avropanın sosial tərəfdaşlarının və digər maraqlı tərəflərin cəlb edildiyi, kvalifikasiya sistemlərinin Avropa Kvalifikasiyalar Çərçivəsi ilə əlaqələndirilməsi prosesində ümumi uyğunluğu təmin və şəffaflığı təşviq etmək üzrə məsuliyyət daşıyan Avropa Kvalifikasiyalar Çərçivəsinin məşvərətçi qrupunu yaratmaq;

3. bu Tövsiyəyə cavab olaraq görülən tədbirləri, o cümlədən məşvərətçi qrupun səlahiyyət çərçivəsi və müddəti və 2013-cü il 23 aprel tarixinədək Avropa Parlamenti və Şuraya qazanılan təcrübə və gələcək üçün çıxarılan nəticələr üzrə hesabatı, eləcə də zəruri olduqda, bu Tövsiyənin mümkün nəzərdən keçirilməsi və təshihini maraqlı tərəflərlə məsləhətləşdikdən sonra Üzv Dövlətlərlə birlikdə qiymətləndirmək və dəyərləndirmək;

4. vətəndaşların mobilliyini yaxşılaşdırmaq və təlim nəticələrinin tanınmasını asanlaşdırmaq məqsədilə Avropa Kvalilifikasiyalar Çərçivəsi və ali təhsil və peşə təhsili və təlimində kredit transferi və toplanması üzrə mövcud və gələcək Avropa sistemləri arasında yaxın əlaqələri təşviq etmək;

**Strasburq, 23 April 2008-ci il.**

**Avropa Parlamenti**
Prezident
HANS-GERT PÖTTERING

**Şura**
Prezident
JANEZ LENARČIČ

**ƏLAVƏ I**

**Təriflər**

Tövsiyədə aşağıdakı təriflər mövcuddur:

(a) "kvalifikasiya" – şəxsin müvafiq standartlara uyğun olan təlim nəticələrinin əldə edilməsi haqqında səlahiyyətli qurum tərəfindən aparılan qiymətləndirmə və təsdiqetmə prosesinin rəsmi nəticəsi;

(b) "milli kvalifikasiyalar sistemi"– təhsil və təlimi əmək bazarı və vətəndaş cəmiyyəti ilə əlaqələndirən təlim və digər mexanizmlərin tanınması ilə bağlı Üzv Dövlətlərin fəaliyyətinin bütün aspektləri. Bura kvalifikasiyaların keyfiyyətinin təmin olunması, qiymətləndirilməsi və verilməsi ilə bağlı institusional tədbir və prosedurların hazırlanması və həyata keçirilməsi daxildir. Milli kvalifikasiyalar sistemi bir neçə alt sistemdən ibarət ola və özündə milli kvalifikasiyalar çərçivəsini birləşdirə bilər.

(c) "milli kvalifikasiyalar çərçivəsi"– əmək bazarı və vətəndaş cəmiyyəti ilə münasibətdə milli kvalifikasiya altsistemlərinin bir-biri ilə əlaqələndirilməsi və inteqrasiyası, eləcə də kvalifikasiyaların şəffaflığı, əldə olunması imkanı, ardıcıllığı və keyfiyyətinin inkişaf etdirilməsi məqsədini daşıyan və əldə olunan təlimin konkret səviyyələri üzrə müəyyən edilən meyarlar əsasında kvalifikasiyaların təsnifat vasitəsi.

(d) "sektor" – əsas iqtisadi funksiyası, fəaliyyət istiqaməti, xidmət və ya fəaliyyət metodikası əsasında peşə fəaliyyətlərinin qruplaşması.

(e) "beynəlxalq sahə təşkilatı" – milli sektorun maraqlarını təmsil edən işəgötürən və peşəkar qurumlar daxil olmaqla milli təşkilatların assosiasiyası;

(f) "təlim nəticələri" – təhsilalanın nələri bildiyini, qavradığını və təlim prosesini bitirdikdən sonra nəyi edə biləcəyini göstərən, eləcə də bilik, bacarıq və kompetensiyaları müəyyən edən göstəricilər;

(g) "bilik" – təlim prosesi vasitəsi ilə informasiyanın mənimsənilməsinin nəticəsi. Bilik fəaliyyət və ya təhsil sahəsi ilə bağlı fakt, prinsip, nəzəriyyə və praktikanın əsasını təşkil edir. Avropa Kvalifikasiyalar Çərçivəsi baxımından bilik nəzəri və/və ya faktlara əsaslanan kimi təsvir edilir;

(h) "bacarıqlar" – tapşırıqların yerinə yetirilməsi və problemlərin həll edilməsi üçün biliklərin tətbiqi və təcrübənin istifadə bacarığı. Avropa Kvalifikasiyalar Çərçivəsi baxımından bacarıqlar koqnitiv (məntiqi, tənqidi və yaradıcı düşünmə qabiliyyəti) və praktiki (fiziki qabiliyyət və müvafiq metod, material, vasitə və avadanlıqlardan istifadə bacarığı) olur.

(i) "kompetensiya"–hər hansı bir fəaliyyət və ya təhsil sahəsində, eləcə də peşəkar və şəxsi inkişaf prosesində bilik, bacarıq və şəxsi, sosial və/və ya metodoloji qabiliyyətlərdən istifadə bacarığı; Avropa Kvalifikasiyalar Çərçivəsi baxımından kompetensiya məsuliyyət və müstəqillik kimi təsvir edilir;

## ƏLAVƏ II

## Avropa Kvalifikasiyalar Çərçivəsində (EQF) səviyyələri müəyyənləşdirən diskriptorlar

8 səviyyənin hər biri istənilən kvalifikasiya sistemində həmin səviyyənin kvalifikasiyasına uyğun təlim nəticələrini əks etdirən bir sıra diskriptorlar vasitəsilə təsvir edilir.

| | | **Bilik** |
|---|---|---|
| | | EQF baxımından bilik nəzəri və/və ya faktlara əsaslanan kimi təsvir edilir |
| **Səviyyə 1** | Səviyyə 1 üzrə təlim nəticələri bunlardır: | • ümumi baza biliyi |
| **Səviyyə 2** | Səviyyə 2 üzrə təlim nəticələri bunlardır: | • fəaliyyət və ya təhsil sahəsi üzrə baza biliyi |
| **Səviyyə 3** | Səviyyə 3 üzrə təlim nəticələri bunlardır: | • fəaliyyət və təhsil sahəsi ilə bağlı fakt, prinsip, proses və ümumi anlayışlar barədə bilik |
| **Səviyyə 4** | Səviyyə 4 üzrə təlim nəticələri bunlardır: | • fəaliyyət və ya təhsil sahəsi üzrə geniş kontekslərdə faktlara əsaslanan və nəzəri bilik |
| **Səviyyə 5*** | Səviyyə 5 üzrə təlim nəticələri bunlardır: | • fəaliyyət və ya təhsil sahəsi üzrə müfəssəl, ixtisaslaşmış, faktlara əsaslanan və nəzəri bilik və bu biliyin sərhədləri barədə məlumatlılıq |
| **Səviyyə 6**** | Səviyyə 6 üzrə təlim nəticələri bunlardır: | • fəaliyyət və ya təhsil sahəsi üzrə qabaqcıl bilik, yəni, nəzəriyyə və prinsiplərin tam başa düşülməsi. |
| **Səviyyə 7***** | Səviyyə 7 üzrə təlim nəticələri bunlardır: | • yeni fikirlərin ərsəyə gəlməsi və/və ya tədqiqat üçün əsas rolunu oynayan yüksək surətdə ixtisaslaşmış bilik, bu biliyin bir hissəsi fəaliyyət və ya təhsil sahəsi üzrə əldə olunmuş ən qabaqcıl yenilikləri əhatə edir<br>• fəaliyyət sahəsi və müxtəlif sahələrin kəsişməsində olan bilik məsələləri üzrə tam məlumatlılıq |
| **Səviyyə 8****** | Səviyyə 8 üzrə təlim nəticələri bunlardır: | • fəaliyyət və ya bilik sahəsinin və müxtəlif sahələrin kəsişməsində olan ən qabaqcıl yeniliklər üzrə bilik |

| Bacarıqlar | Kompetensiya |
|---|---|
| EQF baxımından bacarıqlar koqnitiv (məntiqi, tənqidi və yaradıcı düşünmə qabiliyyəti) və praktiki (fiziki qabiliyyət və müvafiq metod, material, vasitə və avadanlıqlardan istifadə bacarığı) olur. | EQF baxımından kompetensiya məsuliyyət və müstəqillik kimi təsvir edilir. |
| • sadə tapşırıqları həyata keçirmək üçün tələb olunan adi bacarıqlar | • strukturlaşdırılmış şəraitdə birbaşa nəzarət altında fəaliyyət göstərmək və ya təhsil almaq |
| • sadə qayda və üsullardan istifadə edərək tapşırıqları yerinə yetirmək və standart problemləri həll etmək məqsədilə müvafiq məlumatı istifadə etmək üçün zəruri olan adi koqnitiv və praktiki bacarıqlar | • nəzarət altında fəaliyyət göstərmək və ya təhsil almaq, müəyyən müstəqilliyə malik olmaq şərtilə |
| • adi metod, üsul, material və məlumatın seçilməsi və tətbiqi vasitəsilə tapşırıqların yerinə yetirilməsi və problemlərin həlli üçün tələb olunan bir sıra koqnitiv və praktiki bacarıqlar | • fəaliyyət və təhsil sahəsindəki tapşırıqların yerinə yetirilməsi məsuliyyətini üzərinə götürmək<br>• problemlərin həll edilməsində davranışın şəraitə uyğunlaşdırılması |
| • fəaliyyət və təhsil sahəsindəki spesifik problemləri həll etmək üçün tələb olunan bir sıra koqnitiv və praktiki bacarıqlar | • fəaliyyət və təhsil kontekstləri qaydaları çərçivəsində özünüidarəetmə nümayiş etdirmək; kontekstlər adətən proqnazlaşdırıla bilən, lakin dəyişikliyə meyilli olur<br>• digərlərinin gündəlik fəaliyyətinə nəzarət etmək, fəaliyyət və təhsil sahələrinin qiymətləndirilməsi və təkmilləşdirilməsi üzrə müəyyən məsuliyyət götürmək |
| • abstrakt problemlərə yaradıcı həllərin tapılması üçün tələb olunan geniş koqnitiv və praktiki bacarıqlar | • gözlənilməz dəyişiklik baş verən fəaliyyət və təhsil kontekstlərində idarəetmə və nəzarəti üzərinə götürmək<br>• özünün və digərlərinin fəaliyətini nəzərdən keçirmək və inkişaf etdirmək |
| • hər hansı bir ixtisaslaşmış fəaliyyət və ya təhsil sahəsində yaranan mürəkkəb və gözlənilməz problemlərin həlli üçün zəruri olan, məharət və innovasiya tələb edən qabaqcıl bacarıqlar | • gözlənilməz fəaliyyət və təhsil kontekstlərində qərarvermə məsuliyyətini üzərinə götürməklə mürəkkəb texniki və ya peşəkar fəaliyyət və ya layihələri idarə etmək<br>• şəxslərin və qrupların peşəkar inkişafının idarə edilməsi məsuliyyətini üzərinə götürmək |
| • yeni bilik və prosedurlar yaratmaq və ayrı-ayrı sahələrin biliklərini inteqrasiya etmək məqsədilə tədqiqat və/və ya innovasiyada tələb olunan ixtisaslaşmış problem həll etmə bacarıqları | • mürəkkəb, gözlənilməz və yeni strateji yanaşma tələb edən fəaliyyət və ya təhsil kontekstlərini idarə etmək və müsbət istiqamətdə dəyişdirmək<br>• peşəkar bilik və praktikaya töhfə verilməsi və/və ya qrupların strateji fəaliyyətinə nəzarət məsuliyyətini üzərinə götürmək |
| • tədqiqat və/və ya innovasiyada önəmli problemlərin həlli üçün və mövcud bilik və ya peşəkar praktikanın genişləndirilməsi və yenidən müəyyənləşdirilməsi üçün tələb olunan ən qabaqcıl və ixtisaslaşmış bacarıq və üsullar, o cümlədən sintez və qiymətləndirmə | • tədqiqat daxil olmaqla fəaliyyət və təhsil kontekstlərini irəli aparan yeni fikir və proseslərin yaradılmasında nüfuz, innovasiya, müstəqillik, elmi və peşəkar etibarlılıq və davamlı öhdəlik nümayiş etdirmək |

**Avropa Ali Təhsil Məkanının Kvalifikasiyalar Çərçivəsi ilə Uyğunluq**

Avropa Ali Təhsil Məkanının Kvalifikasiyalar Çərçivəsində ali təhsil səviyyələri üzrə diskriptorlar verilir. Hər bir səviyyə ilə bağlı diskriptor həmin səviyyənin başa çatdığını göstərən kvalifikasiyaların əldə olunması üçün tələb olunan nailiyyət və qabiliyyətlərlə bağlı konkret gözləntiləri ümumi formada təsvir edir.

* Bolonya prosesinin bir hissəsi kimi Müştərək Keyfiyyət Təşəbbüsü tərəfindən hazırlanmış qısamüddətli ali təhsil səviyyəsi üzrə diskriptor (birinci səviyyə daxilində və ya əlaqəli) EQF-in 5-ci səviyyəsi üzrə təlim nəticələrinə uyğundur.

** Bolonya prosesi çərçivəsində ali təhsil üzrə məsul nazirlərin 2005-ci il mayında Bergendə keçirilən görüşündə razılaşdırdıqları Avropa Ali Təhsil Məkanının Kvalifikasiyalar Çərçivəsində birinci səviyyə üzrə diskriptor EQF-in 6-cı səviyyəsi üzrə təlim nəticələrinə uyğundur.

*** Bolonya prosesi çərçivəsində ali təhsil üzrə məsul nazirlərin 2005-ci il mayında Bergendə keçirilən görüşündə razılaşdırdıqları Avropa Ali Təhsil Məkanının Kvalifikasiyalar Çərçivəsində ikinci səviyyə üzrə diskriptor EQF-in 7-cı səviyyəsi üzrə təlim nəticələrinə uyğundur.

**** Bolonya prosesi çərçivəsində ali təhsil üzrə məsul nazirlərin 2005-ci il mayında Bergendə keçirilən görüşündə razılaşdırdıqları Avropa Ali Təhsil Məkanının Kvalifikasiyalar Çərçivəsində birinci səviyyə üzrə diskriptor EQF-in 8-ci səviyyəsi üzrə təlim nəticələrinə uyğundur.

**ƏLAVƏ III**

**Avropa Kvalifikasiyalar Çərçivəsi kontekstində Ali Təhsil və Peşə Təhsili və Təlimi sahəsində Keyfiyyət Təminatı üzrə Vahid Prinsiplər**

Avropa Kvalifikasiyalar Çərçivəsini yerinə yetirərkən, hesabatlılıq və ali təhsilin və peşə təhsili və təliminin təkmilləşdirilməsi üçün zəruri olan keyfiyyət təminatı aşağıdakı prinsiplərə uyğun həyata keçirilməlidir:

– Keyfiyyət təminatı üzrə siyasət və prosedurlar Avropa Kvalifikasiyalar Çərçivəsinin bütün səviyyələrinin əsasını təşkil etməlidir.

– Keyfiyyət təminatı təhsil və təlim institutlarının daxili idarəetmə prosesinin ayrılmaz tərkib hissəsi olmalıdır.

– Xarici nəzarət qurumları və ya agentliklər tərəfindən institutların, proqramlarının və ya keyfiyyət təminatı sistemlərinin müntəzəm qiymətləndirilməsi keyfiyyət təminatına daxil olmalıdır.

– Keyfiyyət təminatı həyata keçirən xarici nəzarət qurumları və ya agentliklər müntəzəm surətdə qiymətləndirilməlidir.

– Məhsul və təlim nəticələrini vurğulamaqla bərabər, keyfiyyət təminatı kontekst, qoyulan resurslar, proses və məhsul üzrə ölçü vahidlərini əhatə etməlidir.

– Keyfiyyət təminatı sistemləri aşağıdakı elementləri əhatə etməlidir:
  - aydın və ölçülə bilən məqsəd və standartlar;
  - yerinə yetirilmə üzrə qaydalar, o cümlədən maraqlı tərəflərin cəlb edilməsi;
  - müvafiq resurslar;
  - özünüqiymətləndirmə və xarici nəzarəti əlaqələndirən davamlı qiymətləndirmə metodları;
  - təkmilləşmə üçün əks əlaqə mexanizmləri və prosedurları;
  - qiymətləndirmə nəticələrinin əlçatarlılığı.

– Beynəlxalq, milli və regional səviyyədə keyfiyyət təminatı təşəbbüsləri icmal, uyğunluq, müştərək fəaliyyət və sistemi əhatə edən təhlil təmin etmək məqsədilə koordinasiya edilməlidir.

– Keyfiyyət təminatı Üzv Dövlətlər və İttifaq çərçivəsində bütün müvafiq maraqlı tərəflərin cəlb edildiyi və əməkdaşlıq ruhunda həyata keçirilən proses olmalıdır.

– İttifaq səviyyəsində keyfiyyət təminatı üzrə istiqamətlədirmə qiymətləndirmə və təcrübə mübadiləsi ilə bağlı istinad nöqtələri təmin edə bilər.